

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 66 (23.953)

*12 aprel 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun yeni binasının açılışında iştirak edib. Prezident İlham Əliyev yeni binada yaradılan şəraitlə tanış olub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlətimizin başçısına məlumat verərək bildirib ki, institutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pilləsinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur.

Qeyd edək ki, Bakının Yasamal rayonunda inşa olunan beşmərtəbəli binada inzibati və sinif otaqları, kitabxana, kişilər və qadınlar üçün ayrı-ayrılıqda namaz otaqları, həmçinin dəstəmaz və mətbəə otaqları yaradılıb.

Hazırda Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olur. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər.



## Ölkəmizdə ilk dəfə Naxçıvan Dövlət Universitetində IELTS qeydiyyat və imtahan mərkəzi fəaliyyətə başlayıb



Bu məqsədlə Britaniya Şurasının Azərbaycan Respublikası üzrə direktoru Fransis Qardener –Trexo Naxçıvan Dövlət Universitetində olub. Universitetin rektoru Elbrus İsayev qonağı salamlayaraq IELTS qeydiyyat və imtahan mərkəzinin fəaliyyətə başlamasını muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələri və ictimaiyyət üçün yaddaqalan hadisə kimi dəyərləndirib. İlk olaraq muxtar respublikanın ali təhsil müəssisəsində başlanan bu ənənənin gələcəkdə digər ümumtəhsil məktəblərini də əhatə edəcəyinə inam ifadə olunub. Bildirilib ki, universitetdə əcnəbi tələbələrin sayca üstünlüyünü nəzərə alsaq, digər regionlardan universitetə təhsil almaq üçün gələnlər də bu mərkəzdən faydalana bilərlər. Rektor universitetin elmi uğurlarından danışıb, professor-müəllim heyətinin nüfuzlu jurnallara çıxışının təmin olunmasında da mərkəzin fəaliyyətini, xüsusilə önə çəkib. Qeyd edilib ki, artıq universitetdə müəllim və tələbələr IELTS sertifikatı üzrə təlimlərə başlayıblar. Beynəlxalq akkreditasiya ilə bağlı məsələlərdə bəzi ixtisasların beynəlxalq sertifikatlaşma məsələləri universitetin gələcək hədəfi kimi qarşıya qoyulub. Diqqətə çatdırılıb ki, mərkəzdə ilk dəfə olaraq universitetin ingilis dili müəllimləri və həmin ixtisas üzrə təhsil alan tələbələr imtahan verəcəklər.

Britaniya Şurasının Azərbaycan Respublikası üzrə direktoru Fransis Qardener – Trexo qeyd edib ki, regionlara əlçatanlığın təmin olunması mərkəzin ən böyük hədəflərindən biridir. Naxçıvan Dövlət Universiteti ən böyük IELTS tərəfdaşı olacaq. Bildirilib ki, Britaniya Şurasının 140-dan çox ölkədə mərkəzi fəaliyyət göstərməklə 11000-dən artıq təhsil ocağı ilə tərəfdaşlığı mövcuddur. IELTS-i təhsilin dünyaya qapısı adlandıran Fransis Qardener – Trexo ali təhsil ocağında mərkəzin açılmasını tələbələrin xaricdə təhsil almaları üçün gözəl fürsət olaraq dəyərləndirib. Həmçinin bildirilib ki, əslində, mərkəz fəaliyyətə başlayanda qeydiyyat mərkəzi kimi işləsə də, bu gün universitetdə açılan mərkəzin bir üstünlüyü də ondadır ki, bura həm qeydiyyat, həm də imtahan mərkəzi kimi fəaliyyət göstərəcək. Bu da mərkəzin gələcəkdə perspektivlərinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Görüşün sonunda birgə fəaliyyətə dair əməkdaşlıq müqaviləsi imzalanıb. Qonaq universitetin xatirə kitabına ürək sözlərini yazıb.

Sonra Xarici dillər fakültəsində IELTS qeydiyyat və imtahan mərkəzinin açılışı olub. Universitetin rektoru Elbrus İsayev bildirib ki, mərkəzin fəaliyyət göstərməsi üçün fakültədə iki otaq ayrılıb və kamera ilə təchiz edilib. Vurğulanıb ki, mərkəzin idarə olunmasına rəhbərlik mütəxəssis kimi universitetin Beynəlxalq münasibətlər kafedrasının müəllimi Bayram Əliyevə həvalə olunub.

Sonda Fransis Qardener –Trexo Xarici dillər fakültəsi Sinxron tərcümə mərkəzində müəllim və tələbələrlə görüşüb. Ölkələrimiz arasında beynəlxalq əlaqələr, təhsil sahəsində əməkdaşlıq haqqında ətraflı məlumat verilib. Səmimi söhbət zamanı müəllim və tələbələrin suallarını cavablandıran Fransis Qardener –Trexo yeni açılan mərkəzin gələcək fəaliyyət istiqamətinin uğurlu tərəflərini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Naxçıvan Qarnizonu Qoşunlarında zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarını bitirən gənclərə sertifikatlar təqdim edilib.*

## Hərbi qulluqçu kurslarını bitirən gənclər növbəti xidmət yerlərinə yola salınıblar



Aralarında Vətən müharibəsi iştirakçılarının da olduğu məzunlar növbəti xidmət yerlərinə təntənəli mərasimlə yola salınıblar. Buraxılış mərasimində əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Şəxsi heyəti təbrik edən Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayev bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti ilə güclü müdafiə qüdrətinə və peşəkar döyüş qabiliyyətinə malik Azərbaycan Ordusu formalaşıb. Ümummilli liderimizin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində 44 günlük uğurlu əks-hücum əməliyyatı ilə Vətən müharibəsi bizim böyük zəfərimizlə bitdi.

General-polkovnik Kərəm Mustafayev doğma Naxçıvanımızda hərbi infrastrukturun müasirləşdirilməsi və şəxsi heyətin nümunəvi xidməti üçün mühüm işlərin görüldüyünü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı sayəsində peşəkar hərbçi kadrların hazırlanmasının daim diqqət mərkəzində saxlanıldığını və bu məqsədlə müxtəlif hərbi ixtisaslar üzrə hazırlıq kurslarının təşkil olunduğunu qeyd edib.

Vurğulanıb ki, bu kursları uğurla başa vuran gənclərimiz Əlahiddə Ümumqoşun Orduda, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında şərəfli xidmətləri ilə seçilirlər. Məzunlardan bir qrupu isə ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edəcək. Hər zaman dövlət qayğısı ilə əhatə olunan məzunlarımız Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaq, hərbi rəhbərlər də şagirdlərdə hərb sənətinə maraq yaratmaqla gənclərimizi hərbi xidmətə yüksək səviyyədə hazırlayacaqlar.

Mərasimdə Vətən müharibəsinin iştirakçısı Fəxri Qazıbəyov məzunlar adından çıxış edərək qazandıqları döyüş təcrübəsini və yeni taktiki bilikləri gənc heyətin peşəkar döyüşçülər kimi yetişdirilməsinə sərf edəcəklərinə söz verib.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birinciləri tərəfindən xatirə lövhələrinə buraxılış emblemləri vurulub və şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Nəriman NƏCƏFOV**

## Muxtar respublikada ekoloji normativlərlə bağlı ödənişlər həyata keçirilir

Ölkəmizdə təbii sərvətlərdən istifadə, təbiətin, flora və faunanın qorunması, ətraf mühitin, təbii ehtiyatların mühafizəsi və bərpasının qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsi təmin edilir. Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə dövlətin ekoloji siyasətinin əsas istiqamətlərindəndir. Bunun üçün ölkəmizdə müvafiq qanunvericilik bazası mövcuddur. Həmçinin Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 mart tarixli "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında" Qərarına əsasən 23 qayda təsdiq olunmuşdur. Bu qaydalara əsasən tələblərə uyğun olaraq ekoloji normativlər müəyyənləşdirilmişdir.

Normativlər çərçivəsində faydalı qazıntı yataqlarının qanunsuz işlənməsi nəticəsində dəymiş ziyana, hidrometeorologiya və təbii mühitin monitorinqi üzrə məlumatlardan istifadəyə, atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirlərə xüsusi icazə alınmasına, mineral xammal bazasının bərpasına ayırmaların əmələ gəlməsi, istifadəsi və digər məsələlərlə bağlı ödənişlərin həyata keçirilməsinə başlanılmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 14-31 mart tarixlərdə muxtar respublika ərazisində fəaliyyət göstərən 67 istehsal müəssisəsi ilə müqavilələr bağlanılmışdır. Qeyd olunan müqavilələrdən 5-i mineral xammal bazasının bərpasına ayırma etməli olan, 49-u çirkləndirici maddələri ətraf mühitə atan və atmosfer havasına zərərli təsirlə əlaqədar xüsusi icazə sənədi alan, 13-ü isə mineral xammal bazasının bərpasına ayırma etməli olan, çirkləndirici maddələri ətraf mühitə atan və atmosfer havasına zərərli təsirlə əlaqədar xüsusi icazə sənədi alan müəssisə olmuşdur. Muxtar respublikada fəaliyyət göstərən müəssisələrin Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim etdikləri "Atmosfer havasına atılan zərərli maddələrə dair" hesabatlarına görə, ümumilikdə, ekoloji ödənişlərin məbləği müəyyənləşdirilmişdir. Nazirlik tərəfindən 212 istehsal müəssisəsinə atmosfer havasına zərərli təsirlə əlaqədar xüsusi icazə sənədinin verilməsi və atmosfer havasına atılan çirkləndirici maddələrə görə ekoloji ödənişlərin tətbiq olunması üçün işlər görülür.

Bu günə qədər 18 müəssisə tərəfindən atmosfer havasına zərərli təsirlə əlaqədar xüsusi icazə sənədinin alınmasına görə, 4 istehsal müəssisəsi tərəfindən isə mineral xammal bazasından istifadəyə ayırmalara görə ödəmə aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

*Naxçıvanda sənaye müəssisələri çoxdur və hər il onların sayı daha da artır. Belə sahibkarlıq subyektləri içərisində daim diqqətimi çəkən bir müəssisə də var ki, onun haqqında əvvəllər də yazmışdım, daha doğrusu, fəaliyyətə başlayan zaman orada istehsal olunan məhsullar barədə oxucularımıza məlumat vermişdik. Artıq beşinci ildir, muxtar respublika iqtisadiyyatına öz töhfəsini verən müəssisə, həm də davamlı olaraq istehsal etdiyi məhsulların növ və çeşidlərini artırır, daxili bazarın ehtiyac duyduğu və indiyədək idxal hesabına təmin olunan bir sıra məhsulların istehsalını həyata keçirir. Əlbəttə, bütün bu işlərin görülməsində dövlətin dəstəyi böyükdür, xüsusilə yaradılmış şərait nəticəsində sahibkarların dövlət maliyyə resurslarına çıxışının asanlaşdırılması hər bir sahibkar üçün böyük əhəmiyyətə malikdir. Lakin nəzərə alaq ki, dövlət dəstəyi məsələnin bir tərəfidirsə, sahibkarın işgüzarlığı, öz sektorunda daim yenilikləri təqib etməsi, vətənpərvərliyi, dövlət və xalq qarşısında məsuliyyəti dərindən dərk etməsi işin digər tərəfidir. Adı çoxlarına tanış olan "Azelektrod" Məhdud Məsuliyyətli Cəmiyyəti də məhz bu cür sahibkarlıq subyektlərindən biridir. Bu şirkətdə diqqətimi çəkən maraqlı tərəflərə bir azdan toxunacağam, ancaq əvvəlcə müəssisənin istehsal etdiyi məhsullar haqqında sahibkar Zamin Abbasovun söylədiklərinə nəzər salaq:*

**"Sənaye ili" – 2022**

## Rəqabətqabiliyyətli məhsul istehsal etmək əsas prioritetlərdəndir

## *Zamin Abbasov: "Bir məhsul böyük həvəslə, sevgi ilə, diqqətlə hazırlanmırsa, heç zaman sevilməyəcəkdir"*

– "Azelektrod" Məhdud Məsuliyyətli Cəmiyyəti adından da göründüyü kimi işə ilk olaraq elektrod istehsalı ilə başlayıb. Sahibkarlığın İnkişafı Fondundan bizə böyük maliyyə dəstəyi göstərilib və 2017-ci ildən "Azelektrod" əmtəə nişanı ilə polad və dəmir qaynağı üçün 2,5, 3,2 və 4 millimetr qalınlıqda elektrodlar istehsal edirik. 2018-ci ildən isə müəssisədə "Az-NaxKim" əmtəə nişanı ilə qeydiyyatdan keçmiş kafel, metlax, məsaməli beton-blok, mərmər və qranit yapışdırıcıları (ağ və boz rənglərdə), kimyəvi quru qarışıqlar, hazır suvaq qarışığı, beton səth sərtləşdirici, özüyayılan döşəmə qarışığı, təmir suvağı, aralıq doldurma qarışığı (bütün rənglərdə) kimi tikinti işlərində çox zəruri olan məhsullar istehsal edilir.

***– Gəlin bir az da əvvələ qayıdaq. Necə oldu ki, inşaat sektoru üçün bu məhsulları istehsal etməyə qərar verdiniz? Yəni bunun bir səbəbi olmalıdır, heç bir fikir, ideya birdən-birə yaranmır axı.***

– Doğrudur. Bu müəssisəni yaradana qədər muxtar respublikanın inşaat sektorunda, ancaq fərqli məhsulların istehsalında bir işçi kimi təcrübəmiz olmuşdu. Və mən bu işə tək başlamadım, hazırda da ortaq olaraq müəssisədə birgə çalışdığımız digər dostlarımızla belə bir istehsal sahəsi qurmağı qərara aldıq. Düşündük ki, muxtar respublikamızda tikinti sektorunda istifadə olunan elə məhsullar var ki, onların bir çoxu idxal edilir. Xüsusilə son illərdə yerli xammal potensialına əsaslanan sement, məsaməli beton, gips, alçı kimi məhsulların istehsalına başlanması bizə böyük stimul verdi ki, bu işə başlayaq. Eyni zamanda proseslərə bu tərəfdən baxırdıq ki, bu gün bizdə məsaməli beton və yaxud travertin daşlar istehsal olunursa, niyə biz onun yapışdırıcılarını kənardan almalıyıq? Və yaxud boya inşaat sektorunda ən çox istifadə olunan materialdır. Niyə biz bunu özümüz istehsal etməyək? Düzdür, onun xammalı bizdə yoxdur, ancaq özümüz istehsal etdiyimiz üçün artıq həm keyfiyyətini biləcəyik, həm də idxal məhsuldan daha ucuz olacaq.

***– Boya istehsalı kifayət qədər diqqət tələb edən və innovativ texnologiyalardan istifadəni zəruri edən bir sahədir. Belə bir yükün altına girmək çətin olmadı ki?***

– Bunun üçün biz xeyli vaxt həm istehsal, həm də bazar araşdırmaları apardıq. Türkiyədə, dünyanın bir çox ölkələrində tətbiq olunan istehsal təcrübələrini öyrənməyə çalışdıq. Həm də iş müəyyən maliyyə vəsaiti tələb edirdi, çünki keyfiyyətli boya üçün laboratoriya analizləri tələb olunurdu. Amma bütün çətinliklərə baxmayaraq, müəssisədə yeni laboratoriya yaratdıq. Burada qabaqcıl ölkələrin cihaz və avadanlıqlarını quraşdırdıq. Hazırda istehsal etdiyimiz məhsulların keyfiyyətini yoxlamaq üçün müxtəlif testlər aparırıq. Bu testlər zamanı istehsal olunacaq boyaların özlülüyü (qatı və ya duruluğu), səthi örtmə məsrəfi, temperatura və suya davamlılığı, parlaqlığı, suyun codluğu, donma keyfiyyəti və digər amillər müəyyən edilir. Bunu da deyim ki, müəssisəmizdə izolyasiya materialları, tavan və plastik boyaları, həmçinin fasad üçün silikonlu, akrilik, tekstur, yəni qumlu boyaların istehsalı da həyata keçirilir. Bu gün istehlakçılara "Az-NaxKim" əmtəə nişanı ilə 3, 5, 10, 20 kiloqramlıq qablarda təqdim etdiyimiz boyalar sərfəli qiymət və yüksək qatılıq sayəsində digər boyalardan ən azı iki dəfə qənaətcildir. Artıq məhsullarımız da alıcılar tərəfindən bəyənilir.







***– Yeri gəlmişkən siz bu boyaları satışa çıxararkən, bazarda həm ölkə, həm də xarici istehsallı boyalar artıq neçə illərdir ki, mövcud idi və bu gün də var. Rəqabətə davamlılıq baxımından hansı çətinliklərlə qarşılaşdınız?***

– Bir məsələni qeyd edim ki, əvvəlki illərlə müqayisədə bu gün hər bir naxçıvanlı yerli məhsulun keyfiyyətinə daha çox etibar edir. Naxçıvanın sementi, priketi, gips və alçısı artıq istehlakçılara özünü təsdiq edib. Ancaq məsələ bundadır ki, heç bir müştəri illərlə aldığı markanı birdən-birə başqası ilə dəyişmir. Hətta istehlakçıları kənara qoyun, inşaat materialları satan pərakəndəçilər belə, birinci mərhələdə bizim boyaları satmaqda tərəddüd edirdilər. Amma biz iddialıydıq və özümüzə çox inanırdıq. Hətta açıq demək lazımsa, məhsulun keyfiyyəti üçün sərf etdiyimiz xammalın həcmindəki qiymətin məsrəfini də nəzərə almırdıq. Çünki bir məqsədimiz var idi: üzərində Naxçıvanın adı yazılmış boyalar keyfiyyətli olmalıdır! Ona görə ki, bazara girməyin bizim üçün məqbul sayılacaq başqa bir yolu yox idi. Şükürlər olsun ki, artıq bu gün istədiyimizə çatmışıq, artıq alıcılarımız işimizə verdiyimiz dəyəri yaxşı anlayırlar. Məhsullarımızın böyük bazarlara çıxması üçün isə, təbii ki, zamana ehtiyac var.

***– Hazırda məhsul istehsalında hansı yenilikləriniz var?***

– Bu ildən başlayaraq istehsal sahəsini genişləndirməyə başlamışıq, indi bu sahədə işlər gedir. Yeni dəmir boyası istehsalı üçün müasir avadanlıqlarımız gəlib. Bundan əlavə, avtomobil təmirində çox istifadə olunan polyester məcununun, muxtar respublikada istehsal edilən travertin daşlarının rəngi ilə eynilik təşkil edən yapışdırıcıların istehsalına başlayacağıq. Yeri gəlmişkən, müəssisədə boya üçün rəng piqmentləri də istehsal olunur və artıq bazara çıxarmışıq. Bunu da qeyd etmək istərdim ki, sizin də bildiyiniz kimi, muxtar respublika rəhbəri daim sahibkarlara tövsiyəsində bildirir ki, rəqabətqabiliyyətli məhsul istehsal etmək və onu ixrac etmək əsas prioritetlərimizdəndir. Biz də çalışırıq ki, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirək.

***– Müəssisəniz böyük müəssisə deyil, amma istehsal var, məhsullarınız satılır. Düşünürəm ki, istehsal etdiyiniz məhsullarla muxtar respublika bazarını təmin edə bilirsiniz. Ümumiyyətlə, bu işləri görmək üçün neçə işçiniz var?***

– Müəssisədə cəmi 13 nəfər çalışır. Bu say hazırkı mərhələdə bizim üçün yetərlidir. Bunu da nəzərə alaq ki, bizim məhsulların alışında mövsümilik də var, xüsusilə qış aylarında çətinliklərimiz olur. Ancaq biz bunu nəzərə alaraq elə edirik ki, qış aylarında da müəssisəmiz fəaliyyətini dayandırmasın, işçilərimiz maddi təminat çətinlikləri ilə üzləşməsinlər.

***– Biznesdə belə bir deyim var ki, ideya və pul hər zaman tapılan şeylərdir, əsas məsələ icra etməkdir, yəni işləmək. Hiss edirəm ki, sizin kollektivdə korporativ dəyərlərin ayrıca yeri var. Məsələn, sizi və yaxud sizin kimi gənc dostlarınız olan ortaqlarınızı işçilərlə bərabər yük daşıyarkən, bəzən hər hansı bir təmizlik işləri ilə məşğul olarkən də görmək adi haldır. Mənə elə gəlir ki, burada "hər kəs sahibkar, hər kəs işçidir" prinsipi işləyir. Yanılmıram ki?***

– (Gülür). Düz fikirləşibsiniz, elə o cürdür. Bəzən cəmiyyətdə çoxları düşünür ki, sahibkar kabinetində oturmalı, tapşırıqları oradan verməli, işi oradan idarə etməlidir – bu, tamamilə yanlış yanaşmadır. Əsl sahibkarın iş saatları, bayram və istirahət günləri olmur. O ki qaldı kollektiv münasibətlərə, işçilərə dəyər vermək, mənə görə sahibkarın, hər şeydən əvvəl, diqqət etməli olduğu vacib məsələdir. Çünki bu gün istehsal etdiyin məhsul dəyər qazanırsa, bu məhsula o dəyəri verən işçidir. Bir məhsul böyük həvəslə, sevgi ilə, diqqətlə hazırlanmırsa, heç zaman sevilməyəcəkdir. Bu baxımdan kollektivimizdə çox zaman, yaxşı mənada, kimin idarəçi, kimin işçi olduğu bilinmir.



***– Mənim üçün bir də işin maraqlı tərəfi ondadır ki, siz bir neçə gənc dostunuzla müəssisədə ortaq olaraq çalışırsınız. Adətən, cəmiyyət olaraq bu cür işlərdə şəriklik məsələsinə mühafizəkar yanaşırıq. Amma düşünürəm ki, bu sahədə də uğur qazana bilmisiniz. Ona görə də sualı belə qoyuram: biznesdə ortaqlığın faydalı tərəfləri hansılardır? Elə bilirəm ki, sizin verdiyiniz cavablara tam səmimiyyətlə inanmaq olar, çünki bizə nəzəriyyədən yox, təcrübədən danışacaqsınız.***

– Əlbəttə, mənim yeganə istinad edə biləcəyim yer təcrübədir. Söhbətin əvvəlində də vurğuladım, biz əvvəllər indiki ortaqlarımızla birgə istehsal sahəsində aylıq maaşı olan bir işdə çalışırdıq. Bir-birimizin iş üslubuna, bilik və bacarığına, nə isə öyrənməyə, onu tətbiq etməyə meyilli olduğumuza yaxından bələdçiliyimiz vardı. Elə işi quranda da malik olduğumuz bu tərəflər bizə stimul oldu. Məsələn, bu gün belə bir istehsal müəssisəsi yaratmaq istəyən şəxs ilk olaraq nəzəri baxımdan usta, laborant, mühəndis, anbardar və sair axtarmalıdır. Ancaq bütün bu sahələrdə biz özümüz özümüzü yetişdirməyə başladıq. Nəticədə, laboratoriyanı qurduqdan sonra orada yerləşdirdiyimiz cihazlardan istifadəni də özümüz öyrəndik. Bunun üçün böyük əmək sərf etdik, bəzən bir qarışığın – istər boya olsun, istər yapışqan və yaxud məcun – keyfiyyətli olması üçün aylarla zəhmət çəkdik, xarici analoji məhsulların hazırlanma metodlarını öyrəndik, o məhsullarla öz məhsullarımızın keyfiyyət müqayisəsini apardıq və sonda istədiyimizə nail olduq. Konkret olaraq, ortaqlıq məsələsinə gəldikdə isə biznes ortaqlığı da müəyyən dəyərlər üzərində qurulur. Hər hansı bir qərar veriləndə hər kəsin fikri nəzərə alınır və ən əsası, hər kəs məqsədinin nə olduğunu çox yaxşı bilir. Bizim məqsədimiz maddiyyat üzərində qurulmayıb, əgər belə olsaydı bu qədər çətin yolu birlikdə gələ bilməzdik, istər-istəməz aramızda müəyyən inciklik yaranardı. Bizim hədəfimiz budur: elə keyfiyyətli məhsullar istehsal edək ki, bu məhsullar təkcə bizdə yox, xarici bazarlarda da etibar qazansın, hər kəs Naxçıvanda istehsal olunan məhsulu keyfiyyətin sinonimi kimi görsün. Belə olan tərzdə, təbii ki, maddi qazanc da olacaq. Yəni demək istədiyim odur ki, prosesin özü bizi çox ruhlandırır və daha yaxşısını etməyə sövq edir.

***– Sizə uğurlar arzu edir, inanırıq ki, qarşıya qoyduğunuz hədəflərə nail olacaqsınız.***

– Sağ olun.

***PS:** "Azelektrod" Məhdud Məsuliyyətli Cəmiyyətindən yazı hazırlamaq qərarına burada yeni istehsal sahəsinin yaradılması haqqında məlumat alandan sonra gəlmişdim. Söhbəti ənənəvi suallar üzərində də qura bilərdim, amma mənim də burada kiçik bir məqsədim var idi. Məqsədim bu söhbətdən alınan nəticələri oxuculara, xüsusilə gənc sahibkarlara və yaxud sahibkarlıqla məşğul olmaq istəyənlərə çatdırmaq idi. Beləliklə, "Azelektrod" Məhdud Məsuliyyətli Cəmiyyətinin iş prinsipi ilə tanışlıq bizə deyir ki, muxtar respublikada sahibkarlığın inkişafı üçün lazımi şərait var və dövlət bu sahənin inkişafında maraqlıdır. Bu müəssisənin simasında görürük ki, muxtar respublikamızda sahibkarlığa dərk edən potensial gənclik mövcuddur. Həmçinin o nəticəyə də gəlirik ki, indiki gəncliyin kollektiv şəkildə işləmək, istehsal dünyasındakı yenilikləri tətbiq etmək bacarığı var.*

**Səbuhi HƏSƏNOV**

## 3 ay ərzində Naxçıvan şəhəri üzrə 34 elektron imza sertifikatı verilib

Elektron imza – elektron məkanda imzalamanı təmin edən və bütün beynəlxalq təhlükəsizlik standartına cavab verən tam təkmil imzalama vasitəsidir. Yəni hər hansı bir elektron xidmətdən istifadə edərkən, mail göndərərkən, elektron hökumət portalında qeydiyyatdan keçərkən vətəndaş öz elektron imza sertifikatı ilə kimliyini təsdiq edir, sistem onu eyniləşdirir və virtual mühitdə istədiyi əməliyyatı aparmağa imkan verir. Bir sözlə, virtual məkanda şəxsiyyətimizi təsdiq edən sənəd elektron imza sertifikatıdır.

Elektron hökumətin əsas atributlarından sayılan elektron imza muxtar respublikada da uğurla tətbiq edilməkdədir. Elektron imza sertifikatının tətbiqi və dövlət orqanlarında elektron xidmətlərin göstərilməsinin bir sıra üstünlükləri vardır. Belə ki, vaxta qənaət, məxfilik, rahatlıq, bütünlük, tanınma, işgüzar münasibətlərin və əlaqələrin tamamilə elektron formata keçirilməsini və vətəndaş-hökumət arasında elektron informasiya münasibətlərini təmin edir.

2022-ci ilin birinci rübü ərzində Naxçıvan şəhərində 23 dövlət qurumu, 6 sahibkar və 5-i vətəndaş olmaqla, ümumilikdə, 34 elektron imza sertifikatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə istifadəçilərə təqdim edilib.

Elektron imzadan bütün vətəndaşlar, dövlət orqanları, fiziki və hüquqi şəxslər istifadə edə bilərlər. İmzanı almaq üçün qanunvericiliklə müəyyən olunmuş sənədlər Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim olunmalıdır. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu dövlət qurumları üçün 58 manat, hüquqi şəxslər üçün 72 manat, sahibkarlar üçün 36 manat, vətəndaşlar üçün 18 manat təşkil edir və istifadə müddəti isə 3 ildir.

Elektron imza və ondan istifadə qaydaları barədə ətraflı məlumatları *www.rabite.nmr.az* saytı vasitəsilə əldə etmək olar.

Azərbaycan Respublikasının qanunlarına əsasən elektron imza ilə imzalanan elektron sənəd əl imzası ilə imzalanan və möhürlənən sənədə bərabər tutulur.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

*Ana yurdum Azərbaycanın ayrılmaz parçası, alimlər məmləkəti Naxçıvan... Tarixin, əsrlərin, qərinələrin canlı şahidi olan bu yurd yeri daim elmimizə saysız incilər, mücahidlər, öndərlər bəxş etmişdir. Memar Əcəmi ehtişamı, Kalbalı xan cəsarəti, Mirzə Cəlil mütəfəkkirliyi, Hüseyn Cavid məhəbbəti, ulu öndər dühasının hər daşına, qayasına hopduğu bu diyarın insanları yurdlarına qırılmaz tellərlə bağlı olmuş, milli-mənəvi dəyərlərini qoruyub saxlamış və gələcək nəsillərə ərmağan buraxmışdır. Bunun nəticəsidir ki, Naxçıvanımız tarixin bütün dövrlərində insanların diqqət mərkəzində olmuş, öz köksünü buraya üz tutanlara açaraq qonaqlarını ən gözəl şəkildə qarşılamışdır. Eyni ilə mövzumuzun dəyərli müsahibləri, Azərbaycan Respublikasının sayılıb-seçilən, sevilən incəsənət xadimləri kimi.*

# Azərbaycan Respublikasının sevilən incəsənət xadimləri:

## *"Naxçıvan tarixi minilliklərə söykənən ədəbi sənət məktəbi, yaradıcılıq ocağıdır. Burada doğulub boya-başa çatan insanlar sənət fədakarları, elm fədailəridir"*

Məlumat üçün bildirək ki, Naxçıvan Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş bədii yaradıcılıq festivalının baxış müsabiqəsi keçirilib. Azərbaycan Respublikası Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı (ATİAHİ) Respublika Komitəsinin Rəyasət Heyətinin qərarı ilə ali, orta və ilk peşə ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən festival milli vətənpərvərlik, mədəniyyətimizə, incəsənətimizə, milli adət-ənənələrimizə hörməti inkişaf etdirmək məqsədi daşıyır. Baxış-müsabiqəyə ölkəmizin sevilən incəsənət nümayəndələri – Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlu, Azərbaycan Respublikasının Xalq artistləri – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Samir Cəfərov, Azərbaycan Milli Konservatoriyasının müəllimi Mübariz Tağıyev, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru Təranə Muradova münsiflik etdiblər. Biz də fürsətdən istifadə edərək adıçəkilən dəyərli sənətkarlarımızla həmsöhbət olduq.



Şübhəsiz ki, hər kəs ulu öndərə həsr olunmuş "Sən elə bir zirvəsən" mahnısını müğənni Ağadadaş Ağayevin ifasında sevə-sevə dinləyib. Onun sözlərinin müəllifi gənclərimizin sevimlisi, yüzlərlə şeirinə mahnı bəstələnən şair, publisist ***Baba Vəziroğlu***dur. O dedi: "Əvvəlcə onu qeyd edim ki, Naxçıvan mənim üçün şeiriyyətin, mənəviyyatın, elmin, tarixin ünvanıdır. Bu diyarın qədim və zəngin ədəbi xəzinəyə, o cümlədən zəngin xalq yaradıcılığı nümunələrinə, folklora, qədim dövlətçilik ənənələrinə malik olması, burada dünyanın ən məşhur, görkəmli simalarının yaşaması və başqa ciddi amillər bu tarixi yurdun mədəni sərvətlərinin öyrənilməsini aktuallaşdırır. Bu mənada, aktuallığını qoruyan və inkişaf edən elm sahələrindən biri kimi Naxçıvanda ədəbi mühitin öyrənilməsi məsələsi bu günümüzdə də başlıca yer tutur. Naxçıvan nəinki Azərbaycan, dünya elm və ədəbiyyatına da misilsiz incilər bəxş etmiş, bu diyarın demokratik fikirli ziyalılarının qələmə aldıqları hər bir yaradıcılıq nümunəsi bütün dövrlərlə səsləşən elm külliyyatı olmuşdur. Bu diyarı tanımaq üçün Hüseyn Cavidin lirik-romantik şeirlərini, Məmməd Səid Ordubadinin qələmə aldığı roman və hekayələri, kiçik hekayənin böyük ustadı Mirzə Cəlilin bir-birindən zəngin və maraqlı yaradıcılıq nümunələri ədəbiyyatsevər insanlara bələdçilik edir və bundan sonra da edəcəkdir. Hər bir qələm sahibinin, şairin, yazıçının borcu bu zəngin maarifçilik ənənəsini qoruyub saxlamaq və onu özündən sonrakı nəsillərə miras qoymaqdır.



Bu mənim Naxçıvana ikinci səfərimdir. İlk səfərimdə cəmi 18-20 yaşım var idi 70-ci illərdə, hərbi xidmətimi yerinə yetirmək üçün gəlmişdim. Həmin dövrdən artıq nə az, nə çox düz əlli ilə yaxın bir müddət ötüb. Bu illərdə Naxçıvanın necə dəyişdiyini sözlə demək qeyri-mümkündür. Hərbi xidmətimi yerinə yetirdiyim illərdə əlimdən gəldiyi qədər bu şəhəri tanımağa çalışırdım, çünki Naxçıvanı çox sevirdim. İndi artıq 68 yaşım var və yenə də Naxçıvandayam. Amma tamam fərqli bir Naxçıvanda. Bu Naxçıvanda gənclik illərimdə gördüyüm, şahid olduğum dar küçələr geniş yollarla əvəz olunub, möhrə divarlar, yararsız binalar, bir sözlə, xarabazarı xatırladan miskin bir şəhər, sözün əsl mənasında, müasirliyin ünvanına çevrilib. Hətta hava limanından şəhərə doğru yol alarkən gördüyüm mənzərələr qarşısında məni heyrət və təəccüb bürümüşdü. İnanmırdım. Bu 50 il öncə mənim qoyub getdiyim Naxçıvan idi? Bir anda bu fikirlərim məni şanlı Vətən müharibəsindən sonra azadlığa qovuşan torpaqlarımıza, o cümlədən mədəniyyətin beşiyi olan Şuşa şəhərinə, Vaqif Poeziya Günlərinə apardı. Çünki o zaman da bu fikirlərim sorağına düşmüşdüm. Ümummilli liderin təşəbbüsü ilə böyük şair Molla Pənah Vaqifin türbəsinin ilk açılış tədbirinin iştirakçısı olmuşdum. Şuşa işğaldan azad edildikdən sonra həmin türbənin açılışından düz 39 il sonra bizlər yenə də Ali Baş Komandanın rəhbərliyi ilə ikinci dəfə bu türbənin açılışında iştirak etdik. Şuşaya yenidən qovuşmuşduq. Artıq əmin idik ki, bu torpaqlar Azərbaycanındır, xalqımızındır. Bu, dəyişilməyən həqiqət, inkaredilməz reallıqdır. Sevinirəm ki, Azərbaycanın hər qarışı müasirliyə qovuşur. Şadam ki, bu əmin-aman yurdda sağlam və ideal gənclik formalaşır.

"Naxçıvan tarixi minilliklərə söykənən ədəbi sənət məktəbi, yaradıcılıq ocağıdır. Burada doğulub boya-başa çatan insanlar sənət fədakarlarıdır, elm fədailəridir", – deyir Azərbaycan Respublikasının Xalq artisti, xoreoqraf ***Təranə Muradova***: – Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə haqlı olaraq fəxr edir. Azərbaycan incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və çoxşaxəlidir. Ən geniş yayılmış incəsənət sahələrindən biri də rəqsdir. Tarixi minilliklərə söykənən rəqs bu gün də ölkəmizdə sevilərək yaşadılır. Hətta bu gün Naxçıvan Dövlət Universitetində müsabiqə çıxışlarında milli rəqslərimizi izlədikcə çox şad oldum, sevindim. Peşəmlə əlaqədar olaraq Azərbaycanın bütün bölgələrini gəzmişəm, adət-ənənələri, dəyərləri ilə yaxından tanış olmuşam. Naxçıvana artıq ikinci dəfədir, səfər edirəm. Ümumiyyətlə, mənim bu diyar haqqında zəngin və müsbət fikirlərim çoxdur. Ona görə ki, Naxçıvan tarixi, mədəniyyəti, incəsənəti həmişə Azərbaycan elminə mühüm töhfələr verib. Burada elmimizin böyük dahiləri, mütəfəkkirləri doğulub və xalqının xoş güzəranı üçün çalışıb. Bir sözlə, Naxçıvan elmi, mədəniyyəti və incəsənəti Şərq dünyasının ən aparıcı qollarından sayılmaqdadır. Bu gün də keçmiş ziyalılarımızın öz uğurları ilə seçilən xələfləri var. Hətta rəqs sahəsində belə, biz naxçıvanlı gənclərimizin uğurlarına kifayət qədər şahid olmuşuq. Əlimizdən gəldiyi qədər də bu sahənin incəliklərini gənclərimizə, bizdən sonrakı nəsillərə öyrətməyə çalışırıq. Onlar da, öz növbələrində, bu sahəni cidd-cəhdlə mənimsəməlidirlər. Xatırlayıram ki, uşaqlıqdan anamla baletlərə tamaşa etməyə gedərdik. Hər dəfə bir az da artıq bu sənətə xüsusi marağım yaranırdı. Beləcə, günlərin birində balerina olmaq sevdasına düşdüm. Anamın narazılığına baxmayaraq, 4-cü sinifdə imtahan verib xoreoqrafiya məktəbinə daxil oldum. Sənətimin fanatına, peşəkarına çevrildim. Bir daha dünyaya gəlsəydim, heç tərəddüd etmədən yenə də bu sənəti seçərdim. Çünki mən sənətimlə bütünləşmişəm. Dərs dediyim ali təhsil ocağında da tələbələrimə bunu aşılamağa çalışıram. İnanıram ki, Azərbaycanda və mənə əziz olan Naxçıvanda bu sənətin davamçıları daim var olacaq, mədəniyyətimizi layiqincə yaşadacaqdır.

Növbəti müsahibimiz doğma Naxçıvanımızda böyüyüb, bu torpaqda boya-başa çatıb. O, Azərbaycan Respublikasının Xalq artisti ***Samir Cəfərov***dur: – Ümumiyyətlə, Azərbaycanda opera sənəti bir əsrdən artıq tarixə malikdir. Belə bir irimiqyaslı janrın inkişafı üçün bu, əlbəttə ki, çox az müddət sayıla bilər. Amma qeyd etmək lazımdır ki, tarixən belə bir qısa zaman ərzində bəstəkarlarımız öz dövründə musiqili səhnə sənətini milli xüsusiyyətlərlə zənginləşdirən, ümumavropa opera sənəti ilə uyğunlaşa bilən və eyni zamanda özünün üslub keyfiyyətləri ilə fərqlənən bir sıra maraqlı opera nümunələri yaratmağa nail olmuşlar. Bununla belə, klassik opera janrını mənimsəmək kimi böyük bir məqsədi həyata keçirən Azərbaycan bəstəkarları bu janrın müəyyən xüsusiyyətlərini yaradıcılıqlarında əks etdirmiş və bu sahədə öz yolları ilə irəliləmişlər. Sevindirici haldır ki, bu gün də ölkəmizin bir sıra ali təhsil ocaqlarında bu sənətin sirləri gənc istedadlarımıza aşılanır. Naxçıvan Dövlət Universitetində incəsənət sahəsində təhsil alan tələbələrlə təşkil etdiyimiz səmimi görüşdə, bir daha şahid olduq ki, Azərbaycanda, habelə Naxçıvan Muxtar Respublikasında incəsənət təhsilində bu sənət yaşadılır.

Doğma diyarım Naxçıvana gəldikdə isə tarixi minilliklərlə ölçülən qədim torpağın bu gün hər qarışına vurulan yeni naxışların ecazkarlığı insanların mənəvi dünyasına sirayət edir, qələm sahibləri bu gözəlliklər qarşısında heyranlıqlarını gizlədə bilmir, yurdumuzun büsatına şeirlər yazır, nəğmələr qoşurlar. Günü-gündən gözəlləşən doğma diyarımız həm də böyük sənət və mədəniyyət ocağıdır. Bu yurdun insanları torpaqlarına çox bağlıdır, qonaqpərvərdirlər. Müsabiqədə elə istedadlı gənclərlə qarşılaşdıq ki, onlar arasında seçim etmək, həqiqətən də, çox çətindir. Sevinirik ki, bu gün Azərbaycan mədəniyyəti, poeziyası və incəsənətində belə gənc istedadlarımız üstünlük təşkil edir. İnanıram ki, qarşılaşdığımız bütün gənclərimiz gələcəyin istedadlı incəsənət adamları olacaq, Azərbaycan bayrağını qürurla dalğalandıracaq, milli-mənəvi birliyimizi qoruyub yaşadacaqdır.



"Nə qədər sərt olsa, dalğalar, Qayalara çarpınıb geri dönər" kəlmələrini eşitdikdə ilk ağlımıza gələn Azərbaycan xalqının sevilən sənətkarı ***Mübariz Tağıyev*** olur. Yaşı yetmişi ötməsinə baxmayaraq, söhbətindən də hiss olunur ki, içindəki sənət eşqi heç bir zaman qocalmayıb müsahibimin:

– Azərbaycanın incəsənəti həmişə yüksəkdə olub. Yaxşı xatırlayıram ki, keçid dövründə bir az çətinliklərimiz var idi, amma bu tək Azərbaycanda deyil, keçmiş SSRİ-yə daxil olan digər respublikalarda da özünü göstərirdi. Bu gün artıq azad Azərbaycan özünün ən yüksək intibah dövrünü yaşayır. Ömrünün böyük bir hissəsini sənətə həsr edən biri kimi qeyd etməliyəm ki, yaşlı nəsil sənət nümayəndələrinin bir neçəsinin dünyasını dəyişməsi səhnədə bir qədər boşluğun yaranmasına səbəb olub. Bu gün çox savadlı, çox istedadlı gənclər var. Mən istərdim ki, məhz o gənclər özlərini bu istiqamətdə peşəkarcasına inkişaf etdirsinlər. Xalq musiqisi istiqamətində xeyli irəliləyişlər müşahidə edirik, yeni gənc nəsil gəlir səhnəyə. Hansı ki vaxt vardı camaat deyirdi: "O sənətkarların yerini tutan olacaqmı, görən?" İndi baxırsan ki, çox savadlı, istedadlı gənc incəsənət nümayəndələri yetişir, mən istərdim ki, Naxçıvan Dövlət Universitetində şahid olduğumuz kimi, Azərbaycanın digər ali təhsil ocaqlarında da bu istiqamətdəki irəliləyişləri daim görək. Bu gün, həqiqətən də, mənim üçün maraqlı keçdi. Gənclərimizin bir-birindən yaddaqalan çıxışları mənəvi zövq verdi. Gənc istedadlarımız arasında seçim etmək çox çətindir. Amma müsabiqənin nəticəsi nə olursa-olsun, onların qəlbindəki incəsənət eşqi gərək heç bir zaman ölməsin, daim öz kövrək həvəsləri ilə onu yaşatsınlar. Çünki incəsənət elə bir sahədir ki, yalnız onu yaşadanları sevir. İnanıram ki, onlar tutduqları bu yolda sədaqətlə, ümidlə addımlayacaq, özlərini gələcəyin sənət adamları kimi cəmiyyətdə mövqelndirəcəklər. Mən bütün gənclərimizə uğurlar, müvəffəqiyyətlər arzu edirəm.

✍ Məcid RƏŞADƏTOĞLU

## Mədəniyyət müəssisələrinə işə qəbul üçün müsabiqə keçirilir

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin – muzeylər, kitabxanalar, mədəniyyət sarayları, evləri və klublar, rəsm qalereyası, dövlət qoruqları və muzeytipli müəssisələr, tədris və elmi-metodik müəssisələr, kino, dövlət teatr və konsert müəssisələrinin kadr ehtiyacına olan tələbatının ödənilməsi və vakant yerlərin komplektləşdirilməsi məqsədilə elan olunan müsabiqə "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki müəssisələrə işə qəbul Qaydaları"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 fevral tarixli Qərarına əsasən keçirilir.

348 vakant vəzifənin çıxarıldığı müsabiqədə iştirak etmək üçün 202 namizəd qeydiyyatdan keçib. Ən çox Naxçıvan Dövlət Filarmoniyası (83) və Şərur Rayon Mədəniyyət Şöbəsi (56) üzrə vakant vəzifənin çıxarıldığı müsabiqədə ayrı-ayrı vəzifələr üzrə mədəni təşkilatçı (81) və metodist (29) vakansiyaları üstünlük təşkil edir. Namizədlər arasında daha çox müraciət isə Şərur rayonu (44) və Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi (31) üzrə qeydə alınıb.

İmtahan nəticələri ilə Dövlət İmtahan Mərkəzinin rəsmi internet portalında tanış ola bilərsiniz.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Beynəlxalq olimpiada təşkil olunub



*Aprelin 9-da muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında ilk dəfə olaraq SASMO beynəlxalq riyaziyyat olimpiadası keçirilib.*

Olimpiada Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbdə təşkil olunub.

SASMO beynəlxalq riyaziyyat olimpiadasında iştirak etmək üçün muxtar respublikanın ümumtəhsil məktəblərinin 1-11-ci siniflərindən 297 şagird qeydiyyatdan keçib.

Saat $10^{00}$-da başlayan olimpiadada şagirdlərə 25 sual təqdim olunub ki, onlardan 15-i test,10-u açıqtiplidir. Test sualları 2, açıqtipli suallar isə 4 balla qiymətləndiriləcək. Olimpiada qaydalarına əsasən test suallarında hər bir səhv cavab bir balı aparır. Olimpiadada şagirdlərə 90 dəqiqə vaxt ayrılıb.

Olimpiada Sinqapur Təhsil Nazirliyi tərəfindən keçirilib. Builki olimpiadada 44 ölkədən 40 minə yaxın şagirdin iştirakı nəzərdə tutulur.

Olimpiadada nəticə göstərən şagirdlərə qızıl, gümüş və bürünc medallar, iştirakçılara isə sertifikatlar təqdim olunacaq.

Medal qazanan şagirdlər noyabr ayında Sinqapurda keçiriləcək olimpiadanın final mərhələsində iştirak etmək hüququ qazanacaqlar.

SASMO beynəlxalq riyaziyyat olimpiadasının keçirilməsində məqsəd aşağı siniflərdə təhsil alan şagirdlərin riyaziyyat fənninə motivasiyasını artırmaq, yuxarı sinif şagirdlərinin isə xarici ölkələrdə təhsil almalarına şərait yaratmaqdır.

Qeyd edək ki, olimpiadanın nəticələri 1 ay ərzində elan olunacaq.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulan vəzifələrin icrası mart ayında da təmin edilib.*

## Fövqəladə hallara hazırlıq diqqətdə saxlanılır



Hesabat dövründə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasında şərti olaraq baş verən "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin təşkili, böhran vəziyyətlərində idarəetmə mərkəzinin nazirliyin struktur qurumları ilə qarşılıqlı fəaliyyəti" mövzusunda taktiki-xüsusi təlim, eləcə də Mülki Müdafiə Alayında, Xüsusi Riskli Xilasetmə Xidmətində və Babək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində "Gündəlik həyat fəaliyyətinin təmin edilməsi, xidmətin təşkili və aparılması" mövzusunda göstərici məşğələlər keçirilib.

Sənayedə və dağ-mədən sahələrində texniki təhlükəsizliyin təmin olunması məqsədilə 15 təhlükə potensiallı obyektdə texniki təhlükəsizlik yoxlanılıb, 27 müəssisədə maarifləndirmə-profilaktika işləri aparılıb. Standartların tələblərinə uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının, digər texniki avadanlıqların istismarına yol verilməməsi üçün aidiyyəti qurumların nümayəndələri ilə birgə ticarət obyektlərinə baxış olub, sahibkarlar əvvəlcədən məlumatlandırılıb. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarında mülki müdafiə tədbirlərinin yerinə yetirilməsinə nəzarət edilib, maarifləndirici tədbirlər və qrup məşğələləri keçirilib.

1 mart – Ümumdünya Mülki Müdafiə Günü ilə əlaqədar nümunəvi məşğələlər, dərslər və yarışlar təşkil olunub, 200-dən artıq ümumtəhsil məktəbinin 2, 5 və 6-cı sinif şagirdləri üçün interaktiv dərs keçirilib.

Yanğın təhlükəsizliyinin etibarlı təmin olunması və yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 401 obyektdə yoxlamalar aparılıb, 784 qazanxananın texniki və yanğın təhlükəsizliyi vəziyyətinə baxılıb, mövsümi qazanxana işçiləri təlimatlandırılıb, sertifikatı olan şəxslərin işə cəlb olunması üçün obyekt rəhbərləri maarifləndirilib. 40 nəfər Naxçıvan Şəhər Peşə Liseyində qazanxana maşinisti ixtisası üzrə kursu bitirib.

Aparılan reydlər zamanı 5 min 550 yaşayış evinə baxış keçirilib, yanğın cəhətdən təhlükəli olan 14 yaşayış evində elektrik xətti izolyasiya olunub, 79 qaz cihazının şlanqı qısaldılıb, 41 yaşayış evində təbii qaz sızması aradan qaldırılıb, standarta uyğun olmayan 1 qaz sobasının, 37 nasaz şofben tipli suqızdırıcının və 147 tezqatlanan tüstü borusunun istismarı dayandırılıb.

Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə verilən tapşırıqların icrası ilə bağlı muxtar respublikanın bütün yaşayış məntəqələrində və əhali sıxlığı müşahidə olunan yerlərdə qrafikə uyğun tibbi-profilaktik tədbirlər həyata keçirilib. Ümumilikdə, 12 milyon 200 min kvadratmetr ərazi xüsusi məhlullarla dezinfeksiya olunub. Dezinfeksiya tədbirlərinə Fövqəladə Hallar Nazirliyinin 14 xüsusi təyinatlı avtomobili, 79 nəfər şəxsi heyəti cəlb olunub. *"112"* qaynar xəttinin fasiləsiz fəaliyyəti təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## "Mütaliə aylığı" çərçivəsində tədbir təşkil edilib



*Dünən Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbdə "Mütaliə aylığı" layihəsi çərçivəsində tədbir keçirilib.*

Məktəbin direktoru Esmira Həsənova çıxış edərək mütaliənin şagirdlərin mənəvi aləminin zənginləşdirilməsində, dünyagörüşünün və biliyinin artırılmasındakı rolundan danışıb, bu istiqamətdə "Mütaliə aylığı" layihəsinin olduqca böyük əhəmiyyətini diqqətə çatdırıb.

Sonra Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Sevda Kərimova müəllifi olduğu "Sevimli nağıllar", "Günəşin dostları", "Mavi portağal", "Çərpələng" kitabları barədə şagirdlərə ətraflı məlumat verib.

Qeyd edək ki, belə tədbirlərin təşkilində məqsəd şagirdlərin maariflənməsi, nitqinin inkişafı, onlara vətənpərvərlik hissinin aşılanmasıdır.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3977 | 338,0 | 338,0 | 100,0 |
| 2. | Şərur rayonu | 1907 | 157,1 | 157,1 | 100,0 |
| 3. | Babək rayonu | 1763 | 144,1 | 144,1 | 100,0 |
| 4. | Ordubad rayonu | 1058 | 88,6 | 88,6 | 100,0 |
| 5. | Culfa rayonu | 932 | 76,5 | 76,5 | 100,0 |
| 6. | Kəngərli rayonu | 734 | 61,4 | 61,4 | 100,0 |
| 7. | Şahbuz rayonu | 381 | 32,2 | 32,2 | 100,0 |
| 8. | Sədərək rayonu | 308 | 25,0 | 25,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14277 | 1444,9 | 1427,3 | 98,8 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25337** | **2367,8** | **2350,2** | **99,3** |

**Qeyd:** Mart ayında texniki itki nəzərə alınmaqla verilən 25 milyon 337 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 367 min 800 manat olmuş, cəmi 2 milyon 350 min 200 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,3 faizini təşkil edir.

## Ötən şənbə muxtar respublikada 15 min 620 meşə, meyvə ağacı, gül və bəzək, üzüm kolları əkilib



*Aprelin 9-da muxtar respublikada keçirilmiş ağacəkmədə 15 min 620 meşə, meyvə ağacı, gül və bəzək, üzüm kolları əkilib.*

Naxçıvan şəhərində, Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarındakı 1,2 hektarlıq yeni salınmış bağda 700 meyvə və üzüm, yaxınlıqdakı 1 hektar ərazidə bərpa məqsədilə isə 500 müxtəlif meyvə tingi əkilib, digər iməcilik sahələrində, ümumilikdə, 120 meyvə ağacı bərpa olunub.

Həmin gün Şərur rayonunun Gümüşlü kəndinə gedən yolun kənarlarında bərpa məqsədilə 850 meyvə ağacı əkilib, yerlərdə təmizlik işləri aparılıb, Babək rayonunun Sirab kəndinə gedən yolun kənarlarında bərpa məqsədilə 150 meyvə ağacı əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib. Həmçinin Naxçıvan-Ordubad magistral yolunun Dəstə kəndi hissəsindəki 1,5 hektarlıq bağda 500 meyvə və 150 meşə ağacı, Şəhriyar qəsəbəsində 0,3 hektarlıq ərazidə bərpa məqsədilə 100 meşə ağacı və magistral yolun Əylis kəndi hissəsində 11 min zanbaq gülü əkilib.

Culfa rayonunun Saltaq kəndindəki 0,4 hektarlıq ərazidə 200 meyvə, Culfa düzündəki 0,3 hektarlıq sahədə 300 üzüm kolu, Naxçıvan-Sədərək magistral avtomobil yolunun Qabıllı kəndi hissəsindəki 4 hektarlıq ərazidə bərpa məqsədilə isə 320 meyvə ağacı əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib. Şahbuz rayonunda ərazilərdə yaşıllıqlara aqrotexniki qulluq edilib, Sədərək rayonunda isə 2 hektarlıq ərazidə 730 meyvə ağacı bərpa olunub, yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

**Xəbərlər şöbəsi**

## Növbəti ustad dərsləri və norma yarışları



Şərur Rayon Uşaq-Gənclər Şahmat Məktəbində ümumtəhsil məktəblərində şahmat dərsi tədris edən müəllimlər və şagirdlər ilə ustad dərsi keçilib.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Şərur rayon bölməsinin, rayon Təhsil Şöbəsinin və Uşaq-Gənclər Şahmat Məktəbinin təşkilatçılığı ilə keçilən ustad dərsi beynəlxalq usta, beynəlxalq hakim və şahmat üzrə Azərbaycanın qadınlardan ibarət komandasının baş məşqçisi Fikrət Sideifzadə tərəfindən tədris edilib.

Beynəlxalq usta Fikrət Sideifzadə mövzu ilə bağlı 40 şagird və 20 şahmat müəlliminə faydalı məsləhətlər verib. Daha sonra Fikrət Sideifzadə şagird və müəllimlərlə seans oyunu keçirib.

Sonda müəllim və şagirdləri maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Şahmat Mərkəzində yerli və əcnəbi şahmatçıların iştirakı ilə "İkinci bazar günü" norma və reytinq yarışlarına start verilib. Dairəvi sistem üzrə keçirilən norma turnirində Naxçıvan şahmatçıları ilə yanaşı, Azərbaycan, İran və Türkiyənin qrossmeyster, beynəlxalq usta və FIDE ustaları mübarizə aparır. Dairəvi sistem üzrə 9 turdan ibarət olan yarışda 10 zəka sahibi iştirak edir.

Eyni zamanda Şahmat Mərkəzində keçirilən müxtəlif yaş və reytinqli yarışda 46 zəka sahibi birincilik uğrunda mübarizə aparır.

Yarışın sonunda sıralama və müvafiq reytinq intervallarına əsasən fərqlənən iştirakçılara pul mükafatı təqdim olunacaq.

Şərur Rayon Uşaq-Gənclər Şahmat Məktəbində isə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının rayon bölməsinin, Təhsil Şöbəsinin və Uşaq-Gənclər Şahmat Məktəbinin təşkilatçılığı ilə Türkiyənin Hatay şəhərinin "Şah" Şahmat Klubu ilə onlayn yoldaşlıq görüşü keçirilib.

## Final mərhələsində mübarizə aparacaq komandalar məlum olub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı ilə uşaq futbolu üzrə U-10, U-11, U-12, U-13 və U-14, eləcə də ölkənin ən kütləvi məktəbli futbol turniri olan AFFA "Coca-Cola Məktəbli Kuboku"nun mərhələ yarışları başa çatıb.

Uzunoba Təlim-Məşq İdman Kompleksində olimpiya sistemi üzrə keçirilən çempionatda, ümumilikdə, 51 komanda mübarizə aparıb. Yarışın son günündə daha 3 qalibin adı məlum olub. Belə ki, U-10 liqasında "Şərur" "Araz-Naxçıvan"ı (6:5), U-11 liqasında "Araz-Naxçıvan" UGİM-i (Şərur) (8:2), U-14 liqasında isə UGİM (Şərur) "Araz-Naxçıvan"ı (4:1) məğlub edərək final mərhələsinə vəsiqə qazanıb.

Mərhələ yarışlarının yekun nəticəsinə əsasən muxtar respublikanı "Coca-Cola Məktəbli Kuboku"nun qalibi "Şərur", U-10 liqasında "Şərur", U-11 liqasında "UGİM" (Şərur), U-11, U-12 və U-13 liqalarında isə "Araz-Naxçıvan" komandaları təmsil edəcəklər.

Qeyd edək ki, final mərhələsi Bakı şəhərində təşkil olunacaq.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 2022-ci ilin mart ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4323408 | 645575 | 645653 | 100,0 |
| 2. | Ordubad rayonu | 1361660 | 188701 | 188719 | 100,0 |
| 3. | Şahbuz rayonu | 853781 | 123403 | 123414 | 100,0 |
| 4. | Babək rayonu | 3103400 | 445183 | 445214 | 100,0 |
| 5. | Culfa rayonu | 1460815 | 208328 | 208340 | 100,0 |
| 6. | Şərur rayonu | 2824634 | 386926 | 386938 | 100,0 |
| 7. | Kəngərli rayonu | 1159445 | 161189 | 161191 | 100,0 |
| 8. | Sədərək rayonu | 428339 | 57139 | 57139 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10523860 | 2069971 | 2291131 | 110,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **26039342** | **4286415** | **4507739** | **105,2** |

### *İtmişdir*

Şərur rayonunun Şahbulaq kənd sakini Bağırov Mehman İbrahim oğlunun adına olan JN-043A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Qafarlı Murad Yusif oğlunun adına olan AE-861121 seriya nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Alışar kəndində yaşamış Səfərov Abdulla Əsədulla oğlunun adına olan JN-412 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Alışar kənd sakini Səfərov Talıb Abdulla oğlunun adına olan JN-413 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Zeynəddin kəndində yaşamış Məmmədov Müşfiq Tağı oğlunun adına olan JN-593A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 306